

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

5 iyul 2022-ci il
Çərşənbə axşamı

1933-cü ildən çıxır
№ 26 (3589)




## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin zabitlərinə ali xüsusi rütbələrin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin aşağıdakı zabitlərinə polis general-mayoru ali xüsusi rütbəsi verilsin:

polis polkovniki Canpolad Alı oğlu Daanova
polis polkovniki Namiq Ziraddin oğlu Həsənova
polis polkovniki Vüqar Hidayət oğlu Ələkbərova
polis polkovniki Sərdar Süleyman oğlu Səfərova.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 1 iyul 2022-ci il*

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin bir qrup əməkdaşının təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Cinayətkarlığa qarşı mübarizə, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi, ölkədə tətbiq edilmiş xüsusi karantin rejiminin tələblərinə riayət olunmasına nəzarət edilməsi, işğaldan azad olunmuş ərazilərdə ictimai asayişin və təhlükəsizliyin təmin edilməsi ilə bağlı xidməti vəzifələrini yerinə yetirməkdə fərqləndiklərinə görə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin aşağıdakı əməkdaşları təltif edilsinlər:

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Yusifov Mahmud Şahmurad oğlu – tibb xidməti polkovniki

**"Vətən uğrunda" medalı ilə**

Abbasov Rəşad Vaqif oğlu – polis polkovniki
Aslanov Çingiz Rauf oğlu – polis polkovniki
Həmzəyev Pərviz Mahmud oğlu – polis polkovniki
Qurbanov Elmir Vaqif oğlu – polis polkovniki
Məmmədov Emin Mobil oğlu – polis polkovniki
Nəsirov Zaur Zakir oğlu – polis polkovniki
Sarıyev Bəkir Qəhrəman oğlu – polis polkovniki
Abbasov Zaur Nürəddin oğlu – polis polkovnik-leytenantı
Camalov Vüqar Yahya oğlu – polis polkovnik-leytenantı
Əlizadə Cavidan Gülağa oğlu – polis polkovnik-leytenantı
Kərimov Rəhman Cəbrayıl oğlu – polis polkovnik-leytenantı
Qasımov Ceyhun Həsən oğlu – polis polkovnik-leytenantı
Qasımov Nəvai Becan oğlu – polis polkovnik-leytenantı
Quliyev Elşən Şahlar oğlu – polis polkovnik-leytenantı
Səlimov Murad Rəfayıl oğlu – polis polkovnik-leytenantı
Cəfərov Məhiyəddin Bulud oğlu – polis mayoru
Əliyev Səttar Nizami oğlu – polis kapitanı
Məmmədov Şakir Fərman oğlu – polis baş leytenantı

**"İgidliyə görə" medalı ilə**

Məmmədov Nəsib Sayad oğlu – polis polkovniki
Qaflanov Qurban Oruc oğlu – polis polkovnik-leytenantı
Şıxnəbiyev Rəşad Rəhbər oğlu – polis polkovnik-leytenantı
Nağıyev Kənan İlyas oğlu – polis mayoru
Dadaşov Rəşvin Akif oğlu – polis kapitanı
Mehvalıyev Cəmaləddin Teymur oğlu – polis baş leytenantı
Həbibullayev Rasim Fərman oğlu – polis kiçik leytenantı.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 1 iyul 2022-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR ORQANLARININ ŞƏXSİ HEYƏTİNƏ

***Hörmətli həmkarlar!***

***Azərbaycan Polisinin yaranmasının 104-cü ildönümü münasibətilə bütün şəxsi heyəti, hörmətli veteranlarımızı, respublikamızın ərazi bütövlüyü uğrunda döyüşlərdə və vəzifə borcunu yerinə yetirərkən həlak olmuş əməkdaşlarımızın ailə üzvlərini ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.***

***1918-ci il iyulun 2-də təsis edilmiş polis orqanları ötən müddətdə çətin sınaqlarla dolu şərəfli bir yol keçmiş, respublikamızın ərazi bütövlüyünün, dövlətin konstitusiya quruluşunun qorunmasında önəmli xidmətlər göstərmiş, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə dövlətçiliyin dayaqlarından birinə çevrilmişdir.***

***Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində davamlı surətdə inkişaf edən, təkmilləşən, müasir maddi-texniki bazaya və infrastruktura malik olan polis orqanları cinayətkarlığa, onun transmilli mütəşəkkil növlərinə qarşı mübarizə, ictimai asayişin mühafizəsi, insanların həyatının, sağlamlığının, qanuni mənafelərinin, hüquq və azadlıqlarının müdafiəsi funksiyalarını layiqincə və peşəkarlıqla həyata keçirir. Xidmətdə fərqlənən əməkdaşların dövlət mükafatlarına layiq görülməsi Zati-alilərinin bütövlükdə Azərbaycan Polisinin əməyinə verdiyi ali dəyərin əyani ifadəsidir. Şəxsi heyətin qanunla müəyyən edilmiş vəzifələri, qarşıya qoyulmuş mühüm tapşırıqları, o cümlədən işğaldan azad olunmuş ərazilərdə və xüsusi karantin rejiminin təmini sahəsində böyük əməyini də xüsusi qeyd edir və hər birinizə təşəkkürümü bildirirəm.***

***Əminəm ki, öz andına həmişə sadiq olan və dövlətçiliyin keşiyində əzmlə dayanan daxili işlər orqanları bundan sonra da Vətənə və xalqa şərəflə xidmət edəcək, bu yolda qüvvə və bacarığını əsirgəməyəcəkdir.***

***Bir daha hamınızı "Polis Günü" münasibətilə təbrik edir, möhkəm cansağlığı, ailə səadəti, xoşbəxtlik, xidmətdə və şəxsi həyatda uğurlar arzulayıram! Bayramınız mübarək!***

**Vilayət Eyvazov,**
**Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik**
*2 iyul 2022-ci il*

## AZƏRBAYCAN POLİSİNİN XİDMƏTİ DÖVLƏTƏ VƏ XALQA SƏDAQƏTİN NÜMUNƏSİDİR



Azərbaycan Polisinin yaranmasının 104-cü ildönümü münasibətilə daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov başda olmaqla Nazirliyin rəhbər heyəti Fəxri xiyabana gələrək ulu öndər Heydər Əliyevin abidə kompleksi önünə tər çiçək dəstələri düzüblər. Eyni zamanda, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi ehtiramla yad edilib.

*Ardı 2-ci səhifədə.*

# AZƏRBAYCAN POLİSİNİN XİDMƏTİ DÖVLƏTƏ VƏ XALQA SƏDAQƏTİN NÜMUNƏSİDİR











*Əvvəli 1-ci səhifədə.*

Sonra respublikanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş mərd mübarizlərin uyuduğu Şəhidlər xiyabanı ziyarət olunub.

İyulun 2-də Daxili İşlər Nazirliyinin Polis Akademiyasında Azərbaycan Polisi Gününə və 2021-2022-ci tədris ilinin buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilib. Respublikanın daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov tədbirdə iştirak edib.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin, ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalmış, xidməti borcu yerinə yetirərkən həlak olmuş polis əməkdaşlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Əlamətdar gün münasibəti ilə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, zati-alilərinin təbriklərini və ən xoş arzularını şəxsi heyətə çatdıran general-polkovnik Vilayət Eyvazov ötən 104 ildə polisin keçdiyi çətin sınaqlarla dolu şərəfli və zəngin xidmət yolu, cinayətkarlığa qarşı mübarizədə qazandığı təcrübə, dəyərli ənənələri, xüsusən ulu öndər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrlərdə daxili işlər orqanlarının fəaliyyətinin təşkili, milli ruha malik vətənpərvər kadrlarla möhkəmlənməsi istiqamətində görülən işlərdən danışıb. Nazir Birinci Qarabağ müharibəsində torpaqlarımızın müdafiəsi üçün döyüşlərə atılan polisin öz missiyasını mərdliklə yerinə yetirdiyini, müstəqilliyin yenicə bərpa edildiyi illərdə ölkəmizdə hökm sürən anarxiyanın ağır nəticələrinin aradan qaldırılmasında, respublikada daxili sabitliyin təmin edilməsində və hüquq qaydasının möhkəmləndirilməsində önəmli xidmətlər göstərdiyini diqqətə çatdırıb. Bildirib ki, indiyədək qanunla müəyyən edilmiş vəzifələri yerinə yetirərkən daxili işlər orqanlarının və Daxili Qoşunların 114 əməkdaşı və hərbi qulluqçusu həlak olub, 2792 nəfər xəsarət alıb.

Möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Daxili İşlər Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə görülən işlərin nəticəsi olaraq müasir maddi-texniki bazaya, infrastruktura və qabaqcıl texnologiyaya malik daxili işlər orqanlarının fəaliyyətinin vətəndaş məmnunluğunun təmin edilməsinə yönəldiyini vurğulayan general-polkovnik V.Eyvazov şəxsi heyətin peşə hazırlığının zamanın yeni təhdid və çağırışlarına cavab verən səviyyəyə yüksəldiyini və bu sahədə ardıcıl iş aparıldığını qeyd edib.

Həmçinin bildirib ki, son 19 ildə 23 mindən çox cinayətkar qrup və dəstə zərərsizləşdirilib, əllərdə qanunsuz saxlanılan 18 minə yaxın odlu silah yığılıb və onun tətbiqi ilə törədilən hüquqazidd əməllərin sayı xeyli azalıb. Cinayətlərin orta hesabla 84 faizinin açılması təmin olunub, axtarışda olan 62 mindən çox təqsirləndirilən şəxs tutulub, qanunsuz dövriyyədən 17 tona yaxın narkotik vasitə çıxarılıb. Respublikada əhalinin hər 100 min nəferinə düşən cinayətlərin sayı bu gün də əksər dünya ölkələri ilə müqayisədə xeyli azdır.

O da qeyd olunub ki, pandemiya səbəbindən yaranmış müəyyən fasilədən sonra Azərbaycan yenidən beynəlxalq əhəmiyyətli tədbirlərə ev sahibliyi edir, aidiyyəti dövlət orqanları ilə qarşılıqlı əlaqədə ölkəmizdə, o cümlədən mədəniyyət paytaxtı olan Şuşa şəhərində keçirilən kütləvi və beynəlxalq tədbirlər zamanı ictimai qayda və təhlükəsizlik təmin edilib.

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında möhtəşəm qələbəmizlə nəticələnmiş Vətən müharibəsindən sonra regionda yeni reallıqların yaranmasına diqqət çəkən nazir V.Eyvazov "Böyük qayıdış"ın ilk addımlarının atıldığı, belə bir taleyüklü dönəmdə polis orqanlarının fəaliyyətinin də yaranmış vəziyyətə uyğunlaşdırıldığını, strateji və həyat əhəmiyyətli obyektlərin mühafizəsinin, bütövlükdə asayişin və təhlükəsizliyin etibarlı təmin edildiyini bildirib. Polis və Daxili Qoşunların işğaldan azad olunmuş ərazilərdə öz şərəfli xidmətini böyük əzm və peşəkarlıqla davam etdirdiyini xüsusi qeyd edən nazir ölkə başçısının bu peşə bayramı ərəfəsində 26 əməkdaşı dövlət mükafatları ilə təltif etdiyini, 4 rəhbər vəzifəli əməkdaşa ali xüsusi rütbə verildiyini məmnunluqla xatırladaraq bunun cənab Prezidentin şəxsi heyətə göstərdiyi ali diqqət və qayğının növbəti əyani ifadəsi olduğunu, daxili işlər orqanlarının və Daxili Qoşunların asayişin və təhlükəsizliyin təmini üzrə fəaliyyətini yüksək qiymətləndirdiyini, eləcə də respublika ictimaiyyəti tərəfindən təqdir olunduğunu vurğulayıb. Daha sonra qazanılan uğurlarda Azərbaycan Polisinin müasir dünyagörüşlü yeni nəslini yetişdirən Polis Akademiyasının xüsusi rolunu qeyd edərək məzunları təhsili başa vurmaları münasibətilə təbrik edib.

Daxili işlər naziri Vilayət Eyvazov təntənəli mərasimin iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevi əmin edib ki, öz andına həmişə sadiq olan və dövlətçiliyin keşiyində əzmlə dayanan daxili işlər orqanları bundan sonra da Vətənə və xalqa şərəflə xidmət edəcək, bu yolda qüvvə və bacarığını əsirgəməyəcək.

Nazir xidməti vəzifələrin icrasında daxili işlər orqanlarına hər zaman yardımçı olan, polisin peşə bayramının sevincini bölüşən vətəndaşlara, daxili işlər orqanlarının veteranlarına, dövlət qurumlarının rəhbərlərinə və əməkdaşlarına, kütləvi informasiya vasitələrinin nümayəndələrinə təşəkkürünü bildirib.

Daxili işlər naziri Polis Akademiyasını fərqlənmə ilə bitirən məzunlara diplomları və "polis baş leytenantı" xüsusi rütbələrinin paqonlarını da təqdim edib.

Təntənəli tədbirin sonunda şəxsi heyət mətin addımlarla tribunanın qarşısından keçib.



# BİZİ TƏBRİK EDİRLƏR


Qənirə Paşayeva

**Millət vəkili Qənirə Paşayeva:**

Çox şadıq ki, son iki il içindəki bayramlarımız kimi, Polis Gününü də düşmən üzərində tarixi Zəfərimizin qüruru və sevinci ilə keçiririk. Azərbaycan Polisinin, özəlliklə DİN nəzdindəki Daxili Qoşunların ərazilərimizin düşmən işğalından azad edilməsi və ərazi bütövlüyünün qorunması, işğaldan yeni azad olunmuş ərazilərə giriş-çıxışın qüvvədə olan qaydalar əsasında təmini, asayişin qorunması sahəsində xidmətlərini minnətdarlıqla qeyd edirik.

Polis Günü Azərbaycan Respublikasında qeyd edilən xüsusi günlərdən biridir. Ümummilli lider Heydər Əliyevin 24 may 1998-ci ildə imzaladığı 710 saylı Fərmana əsasən, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti Daxili İşlər Nazirliyinin tərkibində ilk polis orqanlarının təsis edildiyi gün – 2 iyul Azərbaycan Polisi Günü elan edilmişdir. Həmin vaxtdan Azərbaycanda hər il 2 iyul tarixi Azərbaycan Polisi Günü kimi qeyd edilir.

Mən, başda Daxili İşlər Nazirliyinin rəhbərliyi olmaqla, polisimizi 2 iyul – Azərbaycan Polisi Günü münasibəti ilə Mədəniyyət Komitəsi adından bir daha təbrik edir, şərəfli və məsuliyyətli işinizdə yeni uğurlar arzulayıram!

**Millət vəkili Zahid Oruc:**

Dövlət quruculuğunda daxili işlər orqanlarının hakimiyyət subyektləri sırasında yeri həmişə əvəzsiz olub. Biz onu xatırlatmalıyıq ki, söhbət təkcə qanunçuluq və ədalət, eyni zamanda, hüquqi münasibətlər sisteminin bərqərar olması üçün dünyanın hər yerində polis orqanlarına aid olan məsələlərdən getmir. Bizim daxili işlər orqanlarının əməkdaşları səngərdə Vətən müharibəsində iştirak etməkdəydilər və düşmənə qarşı mübarizədə şəhid olurdular. Həmin dövrdə, ondan sonrakı illərdə cinayətkar, kriminogen ünsürlərin, eləcə də xarici dövlətlərdən qaynaqlanan ayrı-ayrı casus mərkəzlərinin fəaliyyətləri, təxribatları da məhz polis orqanlarının bilavasitə rəşadətli əməyi, 24 saat çərçivəsində apardıqları fəaliyyət hesabına bloklanmış, necə deyərlər, neytrallaşdırılmış olub. Ötən 10 illər ərzində daxili işlər orqanları formalaşdı, onun bütün strukturu beynəlxalq modellərə, çağırışlara, tələblərə uyğun yarandı.

İnsan hüquq və azadlıqlarının təminatı yönündə qeyd edə bilərəm ki, bu qurum çox böyük zəhmətin, əməyin sahibidir. Biz bu gün parlament və Daxili İşlər Nazirliyi arasında formalaşan yüksək münasibətlərdən danışarkən ilk növbədə vətəndaş müraciətlərinin, eləcə də tələblərin, iddiaların, çağırışların bu qurumda ən yüksək çərçivədə diqqət və qayğıyla cavablandırıldığını ayrıca vurğulamalıyıq.


Raqif Abbasov

Biz yaxşı bilirik ki, müasir dövr səthi çağırışlarla zəngindir və bunun sırasında hər zaman məhz bu qurumu bu və ya digər formada zərbə altına almaq, onu dövlətin qoruyucu zirehindən çıxarmaq, hakimiyyət subyektləri ilə üz-üzə qoymaq, bundan sonra artıq dövləti ciddi bir şəkildə sanki bir mühasirə altında saxlamaq kimi gündəlik informasiya propaqandaları, sərt mübarizə üsulları işə salınıb. Yenə də biz o siyasətlərin içərisində polisin tərəddüdsüz olaraq dövlətin yanında olmasını görürük. Biz bu gün İnsan Haqları Komitəsi olaraq deyə bilərik ki, daxili işlər naziri hörmətli Vilayət Eyvazovun rəhbərliyi altında polisin bütün strukturları, bütün təmsilçiləri bizim tərəfdən, yəni parlament üzvləri, millət vəkilləri vasitəsilə edilən müxtəlif xarakterli müraciətlərə diqqətlə yanaşır, insan haqlarının təminatı sahəsində yaxından əməkdaşlıq edirik...


Zahid Oruc

Bir sözlə, biz polis orqanlarını yaradılmasının ildönümü münasibətilə təbrik edərkən dövlətimizin, dövlət quruculuğunun, cəmiyyət həyatının təhlükəsizliyinin yaşanmasının, ictimai asayişin ən yüksək səviyyədə qorunmasının, vətəndaşın həyatının qorunmasının bir ifadəsi olduğunun fərqindəyik. Bu təbrik təkcə polis orqanlarına, onun kollektivinə, rəhbərliyinə deyil, bütövlükdə millətimizə, xalqımıza düşən bir təbrikdir. Bu mənada onlara gələcək fəaliyyətlərində uğurlar arzulayırıq. İnanırıq ki, onların fəaliyyətinin daha da təkmilləşməsi, həyat şəraitinin daha da yaxşılaşması, dövlət tərəfindən təminatlarının artması istiqamətində bundan sonra da intensiv işlər həyata keçiriləcəkdir.

**Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi, Milli Olimpiya Komitəsinin üzvü, Azərbaycan Respublikasının Fəxri Bədən Tərbiyəsi və İdman İşçisi Raqif Abbasov:**

Böyük məmnuniyyət hissi ilə Azərbaycan Polisini peşə bayramı, yaranmasının 104-cü ili münasibətilə paytaxt gəncliyi və idmançıları adından səmimi qəlbdən təbrik edirəm. Bu gün ictimai asayişin qorunmasında, ölkəmizin, dövlətçiliyimizin, Azərbaycanın möhkəmlənməsində polisin xidməti danılmazdır. Pandemiyanın çətin günlərində misilsiz və əvəzolunmaz xidmətləri, 44 günlük Vətən müharibəsində məhz polisin ön cərgədə yer alması, fövqəladə vəziyyətlərdə çevikliyi, ən çətin şərtlər altında belə polisin kriminogen duruma nəzarət etməsi qürurvericidir.

Bu gün biz əminliklə deyə bilərik ki, təməli ulu öndər tərəfindən qoyulmuş və cənab İlham Əliyev tərəfindən aparılan daxili və xarici siyasətdə Azərbaycan Polisinin özünəməxsus yeri var. Bu gün Polisin sıralarında ləyaqətlə, şərəflə Vətənə xidmət edən minlərlə gəncimiz var. Bu gün Polisin sırasında tanınmış idmançılar – olimpiya çempionları, dünya və Avropa mükafatçıları xidmət aparır. Bu, Azərbaycan Polisinin gənclərə, idmançılara verdiyi dəyərdir, töhfədir. Eyni zamanda, xüsusilə vurğulamaq istəyirəm ki, ölkəmizdə keçirilən müxtəlif irimiqyaslı tədbirlərin təhlükəsizliyinin təminatında polisimizin peşəkarlığının, icra intizamının şahidi oluruq.


Cəlal Qurbanov

Fürsətdən istifadə edərək nazir, general-polkovnik Vilayət Eyvazov başda olmaqla bütün polis əməkdaşlarını peşə bayramı münasibətilə təbrik edir, gəncliyimizin, gələcəyimizin qorunmasında apardıqları mübarizəyə görə onlara minnətdarlığımı ifadə edirəm.

**AYB-nin üzvü, "Fire Land Production"un rəhbəri Cəlal Qurbanov:**

Yarandığı gündən bu günə kimi Azərbaycan Polisi tariximizdə yaşatdığımız, qoruyub-saxladığımız qəhrəmanlıq ənənələrinə həm sahib çıxdı, həm də özü şanlı bir tarix yazdı. Ötən əsrin 90-cı illərində sınaqlar qarşısında qalan xalqımızın köməyinə çatan, nizami ordu kimi düşmən qarşısında sinəsini sipər edən də Azərbaycan Polisi idi. Birinci Qarabağ müharibəsində ilk şəhidlərimizin məhz polislər olması bunun təsdiqidir.

Vətən müharibəsində Azərbaycan Polisi mobilliyi, çevikliyi ilə diqqətləri üzərinə çəkdi. Ön cəbhədə ordu, arxa cəbhədə dövlətin bütün qurumları ilə rabitənin qurulması məhz polisin vasitəsilə həyata keçirilirdi. Arxa cəbhədə düşmənin hər an təxribat törədəcəyi qaçılmaz olduğundan polis bir an olsun belə ayıq-sayıqlığını itirmədi. Fəxrlə deyə bilərik ki, Vətən müharibəsində qazandığımız böyük Qələbədə polisin öz payı var.

Qazanılan qələbə, aparılan uğurlu strateji siyasət həqiqətən də yeni reallıqlar yaradıb. Sabitlik adası kimi dünyanın siyasi leksikonunda özünə yer edən ölkəmizə müharibədən sonra səfər edənlərin sayında artımın müşahidə olunması hər birimizi sevindirir. Polislərimizin sayəsində ölkəmiz həm də turistlər üçün ən təhlükəsiz dövlətlərdəndir. Cümhuriyyətimizlə yaşıd olan Azərbaycan Polisinə ən böyük mükafat, ən böyük təbrik xalqın ona sevgisidir. Dövlətin də, xalqın da güvənc yerinə çevrilən, cinayətkarlıqla qətiyyətli mübarizə aparan, haqq və hüquqlarımızın qorunmasında yanımızda olan, canımızı, malımızı, əmlakımızı belə güvənib etibar etdiyimiz Azərbaycan Polisi, Vətən müharibəsində şəhidlik zirvəsinə ucalanların əmanətləri Sizə olan rəğbətlərini daima ifadə edir, onlara göstərdiyiniz ehtiramı, təzimi hər zaman vurğulayırlar. "Fire Land Production"un həyata keçirdiyi "Mənim atam qəhrəmandır", "Mənim oğlum qəhrəmandır" layihələri zamanı bu diqqəti dərindən hiss etdik, polislərimizin hərbi salamla şəhid əmanətlərinə təzim göstərmələrinə dəfələrlə şahid olduq.

Mən peşə bayramı, bu tarixi gün münasibətilə Daxili İşlər Nazirliyinin rəhbərliyini, polis qardaşlarımı təbrik edir, onlara çətin və şərəfli xidmətlərində uğurlar arzulayıram.

# Əməkdaşlarımız beynəlxalq təcrübəni öyrənir



Əməkdaşlarımız Budapeşt şəhərində keçirilən subregional təlimdə iştirak ediblər. Avropa İttifaqının Hüquq mühafizə Təlimləri üzrə Agentliyinin (CEPOL) Şərq Tərəfdaşlığı ölkələri üçün “TOPCOP” layihəsi çərçivəsində həyata keçirdiyi “Qeyri-qanuni miqrasiyanın idarə edilməsi – insan hüquqlarına uyğun müsahibə üsulları” adlı təlimə Azərbaycan, Moldova və Gürcüstanın nümayəndə heyətləri qatılıb.

Ölkəmizi DİN-in əməkdaşları, polis mayoru Vaqif Əzizov, polis baş leytenantları İlham İsmayılov, Rüstəm Diniyev və İsmayıl Muxtarovdan ibarət nümayəndə heyəti təmsil edib. Həmçinin Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Dövlət Miqrasiya Xidmətinin işçiləri təlimə qoşulublar.

Tədbirlə bağlı “Polis”ə məlumat verən polis mayoru Vaqif Əzizov bildirib ki, proqram çərçivəsində qanunsuz miqrasiya qurbanı olmuş şəxsin səhnə obrazı yaradılıb və həyat hekayəsi dinlənilib. Müvafiq təlimata uyğun olaraq səhnələndirilmiş obrazın problemləri, təqdim olunan məlumatların analizi, eyni zamanda qeyri-qanuni miqrasiya marşrutlarının və mütəşəkkil cinayətkar dəstələrin müəyyən edilməsi istiqamətində müzakirələr aparılıb.

Daha sonra qanunsuz miqrasiya qurbanı olmuş şəxslərdən ilkin ifadənin alınması, təhqiqat və istintaq hərəkətlərini özündə əks etdirən təlim keçirilib. Hər 3 ölkənin nümayəndə heyətləri tərəfindən əməliyyat tədbirləri, habelə dindirmə və prosessual hərəkət bacarıqları nümayiş olunub.

Təlimçilərin mütəşəkkil dəstə tərəfindən törədilən cinayətlər mövzusundakı dərsləri iştirakçıların marağına səbəb olub. Eyni zamanda insan alveri, çirkli pulların yuyulması, silah alveri ilə əlaqəli cinayətlərdən, narkotik vasitələrin qanunsuz dövriyyəsindən bəhs edilib, qanunsuz miqrasiya sahəsində cinayət törədən şəxslərin tutulması ilə bağlı videolar izlənilib.



Təlimin sonunda iştirakçılara müvafiq sertifikat və xatirə hədiyyələri verilib.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# Əsrin sınağından çıxanlar




**İyulun 1-də Səbail Rayon Polis İdarəsində Azərbaycan Polisinin yaranmasının 104-cü ildönümü münasibətilə tədbir keçirilib.**



Mərasimdə Rayon İcra Hakimiyyətinin başçısı Vüqar Zeynalov, RPİ-nin rəisi, polis polkovniki Hikmət Qasımov, eləcə də polis veteranları, idarənin əməkdaşları və şəhid polislərin ailə üzvləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan idarə rəisi Azərbaycan Polisinin 104-cü ildönümü münasibətilə daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun təbrikini şəxsi heyətə çatdırıb. Qeyd olunub ki, 1918-ci il iyulun 2-də təsis edilmiş polis orqanları ötən müddətdə çətin sınaqlarla dolu şərəfli bir yol keçib, respublikamızın ərazi bütövlüyünün, dövlətin konstitusiya quruluşunun qorunmasında önəmli xidmətlər göstərib, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə dövlətçiliyin dayaqlarından birinə çevrilib. O da vurğulanıb ki, bu gün Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində davamlı surətdə inkişaf edən, təkmilləşən, müasir maddi-texniki bazaya, infrastruktura malik olan polis orqanları cinayətkarlığa, onun transmilli mütəşəkkil növlərinə qarşı mübarizə, ictimai asayişin mühafizəsi, insan həyatının, sağlamlığının, qanuni mənafelərinin, hüquq və azadlıqlarının müdafiəsi funksiyalarını layiqincə və peşəkarlıqla həyata keçirir.

Azərbaycan Polisini peşə bayramı münasibətilə təbrik edən RİH-in başçısı V.Zeynalov Müzəffər Ali Baş Komandan İlham Əliyevin polis işçilərinə verdiyi ali dəyərdən danışıb. Bildirib ki, qanunla müəyyən edilmiş vəzifələri, qarşıya qoyulmuş mühüm tapşırıqları, o cümlədən işğaldan azad olunmuş ərazilərdə, xüsusi karantin rejiminin təmini sahəsində polis əməkdaşlarının böyük əməyi, zəhməti var və onlar üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirirlər.

Sonra RPİ-nin əməkdaşı, polis kiçik serjantı Ülviyyə Abbasova polisin yaranma tarixi, keçdiyi şərəfli xidməti-döyüş yolu barədə mərasim iştirakçılarına qısa məlumat verib.

Tədbirdə çıxış edən veteranlar vətəndaşlarımızın dinc, firavan yaşamalarında, habelə ictimai təhlükəsizliyin etibarlı təminatında, ölkədəki kriminogen durumun nəzarətdə saxlanılmasında hüquq mühafizə orqanlarının, eləcə də polisin böyük işlər gördüyünü diqqətə çatdırıblar.

Sonda RİH-in başçısı V.Zeynalov və RPİ-nin rəisi, H.Qasımov nizam-intizamı ilə seçilən, həmçinin xidmətdə fərqlənən əməkdaşlara Fəxri fərman və qiymətli hədiyyələr təqdim ediblər.

Qeyd edək ki, peşə bayramı ilə əlaqədar idarənin 78 əməkdaşı mükafatlandırılıb.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Şəhid ailələri bizə əmanətdir



Masallıda həmkarlarımız peşə bayramlarını şəhid ailələri ilə birlikdə qeyd ediblər. Onlar doğum gününü qeyd edən Vətən Müharibəsi şəhidi Raqib Əzizovun qızı Ayan Əzizovanın qonağı olublar. Polis əməkdaşları balaca Ayanı təbrik edərək gətirdikləri hədiyyələri ona və qardaşına təqdim ediblər. Bundan başqa, asayiş keşikçiləri daha iki Vətən Müharibəsi şəhidinin-Elvin Əzizovun və Nurlan Əbilovun ailəsini ziyarət edib, onların övladlarını da sevindiriblər.



Şəhidlərin ailə üzvləri göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə ediblər.

# Hər zaman xatırlanacaqlar

## *Onlar Vətənə sədaqət, xalqa sevgi rəmzidir*

Polisin peşə bayramı paytaxtda olduğu kimi, bölgələrdə böyük qürur və sevinc hissi ilə qeyd olunub. İmişlidə də keçirilən tədbirdə rayon İcra Hakimiyyətinin başçısı Elçin Rzayev, hüquq mühafizə orqanlarının rəhbərləri, eləcə də Rayon Polis Şöbəsinin əməkdaşları iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə Azərbaycanın Milli Qəhrəmanı İmamverdi Əliyevin Rayon Polis Şöbəsinin inzibati binasının önündə ucaldılan büstünü ziyarət edərək gül-çiçək dəstələri qoyub, xatirəsini ehtiramla anıblar.

Daha sonra inzibati binada davam edən tədbirdə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Vətən müharibəsində şəhid olanların xatirələri bir dəqiqəlik sükutla yad edilib. Çıxış edənlər Azərbaycan Polisinin şərəfli tarixindən, Vətən uğrunda mücadiləsindən, cinayətkarlıqla mübarizəsindən qürurla danışaraq həmkarlarımıza çətin və şərəfli peşələrində uğurlar arzulayıblar.



Qeyd edək ki, Milli Qəhrəman Əliyev İmamverdi Barat oğlu İmişli rayonunun Qulubəyli kəndində dünyaya gəlib. Orta təhsilini bitirdikdən sonra sürücülük peşəsinə yiyələnib. Bakı Xüsusi Milis Məktəbini bitirdikdən sonra Daxili İşlər Nazirliyinin göndərişi ilə İmişli rayonuna baş inspektor vəzifəsinə təyin edilib. 1990-cı illərdə cəbhədə vəziyyət gərginləşəndə İmamverdi Əliyev Cəbrayıl rayonuna ezam olunub. Döyüşlərdə böyük fədakarlıq göstərərək düşmənin 4 tankını və xeyli canlı qüvvəsini məhv edib. Hadrut rayonunun Şaqax kəndində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli, 264 saylı Fərmanı ilə Əliyev İmamverdi Barat oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

# Asayişi daha etibarlı qorumaq üçün




Azərbaycan Polisinin peşə bayramı günü Salyanın Xıdırlı kəndində Salyan Rayon Polis Şöbəsinin 14 saylı polis sahə məntəqəsinin inşa edilmiş inzibati xidməti binasının açılışı olub. Tədbirdə Salyan rayon İcra Hakimiyyətinin rəhbərliyi, hüquq mühafizə orqanlarının əməkdaşları, eləcə də RPŞ-nin kollektivi iştirak ediblər.

Açılışda çıxış edən Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Nəzər Əsgərov bildirib ki, yeni inzibati binanın istifadəyə verilməsi Prezident İlham Əliyevin və Daxili İşlər Nazirliyinin rəhbərliyinin şəxsi heyətə ali diqqət və qayğısının növbəti əyani təzahürüdür. Şöbə rəisi qeyd edib ki, ictimai qaydanın qorunmasının, ictimai təhlükəsizliyin təmin edilməsinin səmərəsini artırmaq və vətəndaşların polisə müraciətlərini asanlaşdırmaq məqsədi ilə inşa edilən bina müasir standartlara uyğun olan bütün zəruri avadanlıq, inventar və kommunikasiyalarla təchiz edilib, yardımçı otaqlar istifadəyə verilib. Həmçinin binada havalandırma, mərkəzi istilik sistemi və elektrik xətləri quraşdırılıb, ərazidə isə abadlaşdırma, yaşıllaşdırma və xarici işıqlandırma işləri yerinə yetirilib.

# Qorumaq və yaşatmaq naminə səfərbərik



Daxili İşlər Nazirliyi Baş Mühafizə İdarəsi Nizami Rayon Mühafizə İdarəsinin əməkdaşları ənənəyə çevrilən "Qan ver, yaşat!" aksiyasına qoşulublar. Hemofiliya, talassemiya və digər qan xəstəliklərindən əziyyət çəkənlərə yardım məqsədilə təşkil edilən aksiyada idarənin şəxsi heyəti, o cümlədən mülki mühafizə xidmətinin əməkdaşları fəal iştirak ediblər. Humanist aksiyada daxili işlər orqanlarının əməkdaşları hər il iştirak edirlər. Təkcə Baş Mühafizə İdarəsinin təşkilatçılığı ilə may ayından başlayan qanvermə aksiyası paytaxtın bir neçə mühafizə idarəsində təşkil edilib. Baş İdarənin 270 əməkdaşı qanvermə aksiyasında iştirak edib.



Tədarük olunan qan hemofiliyalı və talassemiyalı, həmçinin qana ehtiyacı olan digər xəstələrin müalicəsində istifadə olunur.

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9236
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:30
Qiyməti 40 qəpik